# Binəqədi paytaxtın ən abad və müasir rayonlarından birinə çevrilir

**Paytaxt Bakının qədim yaşayış məskənlərindən olan, əməksevər insanlarının sayəsində daim tərəqqi edən, neft-qaz sənayesində zəngin ənənələr formalaşdıran Binəqədi rayonu bu gün inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının digər rayonları kimi, Binəqədinin də inkişafına, müxtəlif sosial layihələrin reallaşdırılmasına xüsusi diqqət və qayğı ilə yanaşır. Rayonun tərəqqi və inkişaf yolu keçməsi, abadlıq-quruculuq və yenidənqurma sahəsində böyük uğurlara imza atması, ilk növbədə, dövlət başçısının dəstəyi, diqqət və qayğısı nəticəsində mümkün olub. Təkcə onu demək kifayətdir ki, cənab Prezident İlham Əliyev dəfələrlə Binəqədi rayonu ərazisində görülən işlərlə yerindəcə tanış olmuş, bir sıra obyektlərin açılışında iştirak etmiş, dəyərli tapşırıq və tövsiyələrini vermişdir. Təbii ki, bu səfərlər Binəqədi rayonu ilə bağlı strateji planların, layihələrin reallaşdırılmasına yüksək səviyyəli əməli dəstək deməkdir.

Xatırladaq ki, ötən müddət ərzində Binəqədi sakinlərinin rahat, firavan yaşayışının təmin edilməsi baxımından müxtəlif sahələr üzrə infrastrukturun yeniləşdirilməsinə, kommunal xarakterli problemlərin həllinə xüsusi diqqətlə yanaşılıb. Qəsəbələrarası və məhəllədaxili yollarda, mərkəzi küçə və məhəllələrdə, yaşayış binalarının fasad və dam örtüklərində, park və meydanlarda, həmçinin digər infrastruktur sahələrində yenilənmə və əsaslı təmir işləri bu gün də uğurla davam etdirilir. Ötən illər ərzində Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə rayon ərazisində xeyli sayda abad məhəllə yaradılıb. Məhəllələrdəki yaşayış binalarının fasadları yenilənib, giriş qapıları kodlaşdırılıb, həyətlərdə istirahət köşkləri, oturacaqlar, uşaqlar üçün əyləncə qurğuları quraşdırılıb. Hazırda rayonun bir sıra yaşayış massivlərində genişmiqyaslı abadlıq işləri davam edir. Mikrorayonlarda və digər yaşayış ərazilərində əhalinin rahatlığının təmin olunması məqsədilə bir sıra yararsız, istismar müddəti başa çatmış binalar sökülərək yerində müasir tələblərə cavab verəcək çoxmənzilli binaların tikintisinə başlanılıb.

Yeri gəlmişkən, müvafiq dövlət proqramları çərçivəsində ötən illərdə olduğu kimi, Bakının digər rayonları ilə yanaşı, Binəqədidə də genişmiqyaslı yenidənqurma işləri həyata keçirilib. Ardıcıl və sistemli şəkildə gerçəkləşdirilən tədbirlər nəticəsində sovetlər dönəmində mikrorayonlarda tikilmiş binaların əksəriyyətinin görkəmi bu gün tamamilə dəyişib və burada insanların məmnunluğunu təmin edən lazımi şərait yaradılıb.



Binaların fasadlarının müasirləşdirilməsi ilə yanaşı, zirzəmilərdə geniş təmizlik işləri aparılıb və bu tədbirlər hazırda da davam etdirilir. Xüsusilə qeyd olunmalıdır ki, Binəqədi ekoloji təmizliyinə görə Bakı şəhərinin rayonları sırasında öncül yerlərdən birini tutur. Ərazidəki binaların dam örtüklərinin, fasadların, günlük və girişlərin, giriş qapılarının, pilləkən qəfəslərində pəncərələrin təmiri və ya dəyişdirilməsi, həyətlərin abadlaşdırılması, məhəllələrdə mövcud xeyir-şər yerlərinin təmiri, bərpası və yenisinin tikilməsi, mənzil fondunun qorunub saxlanması rayon rəhbərliyinin ciddi nəzarəti altındadır. Görülən işlər nəticəsində mikrorayonlarda köhnə və baxımsız məhəllələrin görkəmi tanınmaz dərəcədə dəyişib, insanlarda razılıq doğuran istirahət guşələri yaradılıb, genişhəcmli yaşıllıq və xiyabanlar salınıb.

**102 saylı Mənzil Kommunal İstismar sahəsinin rəisi Namik Cəfərovun** sözlərinə görə, xidməti ərazidə yerləşən Azadlıq prospekti 156,158, 160, Ceyhun Hacıbəyli 70,68, 66,64, Ziya Bünyadov prospekti 7,7a, 9/5, 11, 11a, 9, 9a saylı binaların giriş qapıları təmir edilib və pəncərələr dəyişdirilib. Eyni zamanda Azadlıq prospektindəki binaların fasadı müasir üslubda təmir olunub: "Hazırda Şəmsi Rəhimov küçəsi 51, 54, 57, 56, 58 və 60 saylı binaların girişlərində təmir işləri davam etdirilir. Binaların dam örtüyünün təmiri də nəzərdə tutulub və yaxın günlərdə bu işə başlanılacaq".

1 saylı MKİS-in xidməti ərazisində yerləşən çoxmənzilli yaşayış binalarında isə 80-ə yaxın giriş təmir olunub, pilləkən meydançalarına metlax döşənib. Eyni zamanda, 32 saylı binanın həyətində abadlıq işləri görülüb və burada yaşayan insanların rahatlığı üçün mini-park salınıb. Binaların dam örtükləri yanar əşyalardan təmizlənib, mənzillər daimi su ilə təchiz edilib və damlardakı su çənləri yığışdırılıb. Təmir zamanı ən keyfiyyətli tikinti materiallarından istifadə olunub. Girişlərdə olan qaz boruları rənglənib və pilləkənlər təmir olunub.

**Sakin Məhəmməd Haqverdiyev** bizimlə söhbət zamanı vurğuladı ki, ötən dövr ərzində, həqiqətən də rayonda və onun qəsəbələrində genişmiqyaslı təmir-tikinti işləri həyata keçirilib: "Rayonda bu istiqamətdə görülən işlər əhali tərəfindən yüksək dəyərləndirilir. Yaşadığım ərazidə son aylar əhalinin istirahəti üçün park salınıb. Binaların girişləri təmir edilib, yararsız liftlər yenisi ilə əvəzlənib, əhali fasiləsiz içməli su ilə təmin olunub. Zibilin yığılıb daşınması üçün xüsusi yerlər tikilib, qaz, işıqla bağlı çətinliklər aradan qaldırılıb. Eyni zamanda, məhəllədaxili yollar təmir edilərək asfaltlanıb və kanalizasiya xətləri yenilənib. Hazırda ərazidə fasiləsiz olaraq təmir-tikinti işləri həyata keçirilir".

**Sakin Ramin Əmrahov** da rayonda görülən işlərdən razı qaldığını vurğuladı: "Yay mövsümünün başlanması ilə əlaqədar ərazidə yaşıllıqların suvarılması daha da intensivləşib. Bu işlərdə sakinlər də yaxından iştirak edir. 32 saylı binanın qarşısında gözəl park salınıb. Burada insanların əylənməsi və dincəlməsi üçün mümkün olan hər cür şərait yaradılıb. Onu da əlavə edim ki, bu gün mikrorayonlardakı əksər yaşayış binalarının qarşısında mini-parklar salınıb və burada uşaqların əylənməsi üçün xüsusi qurğular quraşdırılıb. Əhalinin rahatlığı üçün məhəllələrdə "xeyir-şər" evləri inşa olunub və geniş yaşıllıqlar salınıb". Həmsöhbətimin sözlərinə görə, görülən işlərin sayəsində Binəqədi rayonu az bir vaxt ərzində Bakının ən gözəl və baxımlı məkanlarından birinə çevrilib .

**Sakin Əlövsət Məmmədov** isə bu istiqamətdə rayon icra hakimiyyətinin gördüyü işləri yüksək dəyərləndirdi: "Hansı rayonun icra hakimiyyətinin məsul işçiləri öz işinə məsuliyyətli yanaşırsa, əhalinin qayğıları ilə maraqlanırsa, orada problemləri həll etmək daha asan olur. Bu baxımdan, binəqədililərin bəxti gətirib. Şükürlər olsun ki, rayonumuzda işlər hələ ki, yaxşı gedir. İcra hakimiyyətində yaradılmış "Sakinlərin Müraciət Xidməti" əhalinin şikayətlərinin operativ həllinə imkan yaradır. Rayonun daha da gözəlləşdirilməsi istiqamətində xeyli işlər görüb. Bu gün Binəqədidə salınmış parklara, demək olar ki, Bakının heç bir yerində rast gələ bilməzsiniz. Binaların qarşısında əhalinin istirahəti üçün gözəl park və xiyabanlar salınıb. Məhəllələrdə avtomobillərin park edilməsi üçün şərait yaradılıb. Məhəllədaxili yollar asfaltlanıb, işıqlandırma sistemləri müasir tələblərə cavab verir. Qəsəbələrarası və məhəllədaxili yollarda, mərkəzi küçə və məhəllələrdə, yaşayış binalarının fasad və dam örtüklərində, park və meydanlarda əsaslı təmir işləri bu gün də yüksək templə davam etdirilir. Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə başlanılmış "Təmiz Binəqədi" və "Birgə Yaradaq" sosial layihələri çərçivəsində işlər bir qədər də sürətləndirilib".

Xatırladaq ki, ötən il 9-cu mikrorayonda tikilən məscid kompleksi ilə əlaqədar ərazidə genişmiqyaslı abadlıq işləri həyata keçirilib. Məscid kompleksinə rahat gediş-gəlişin təmini üçün ölkə başçısı cənab İlham Əliyevin tapşırıq və tövsiyəsi əsasında 6-cı mikrorayon Svetlana Məmmədova küçəsində - "Zeytunluq" deyilən ərazinin bir hissəsi də daxil olmaqla - iki istiqamətli yol inşa edilib. Rayonun inkişaf planına uyğun olaraq, məscid kompleksinə paralel yerləşən Həmzə Babaşov küçəsi 12, 13, 14, 15, 16, 17, 19, 20 və 21 saylı binaları əhatə edən ərazidə müasir üslublu dekorasiya ilə əhatə olunan nümunəvi məhəllələr salınıb. 20 və 21 saylı binalarda girişlər, mərtəbələrarası hissələr, pilləkənlər təmir olunub, mənzillərin pəncərələri yenisi ilə əvəz edilib. Binaların fasad hissəsi xüsusi tikinti materiallarından istifadə olunmaqla əsaslı təmir olunub. Bundan əlavə, ətrafda yerləşən 13, 14, 15, 16, 17 və 19 saylı binalarda da əsaslı təmir işləri görülüb. Məişət tullantılarının daşınması üçün xüsusi yerlər tikilib, qaz və işıqla bağlı çətinliklər aradan qaldırılıb, binaların zirzəmiləri çirkab sulardan təmizlənib, kanalizasiya xətləri təmir olunub.

Bir sözlə, həyata keçirilən sosial layihələr, görülən işlərin miqyası onu deməyə əsas verir ki, Binəqədi paytaxtın ən abad və müasir rayonlarından birinə çevrilir.





**Ramiz YUSİFLİ,**
**"Respublika".**